

# İLHAM ƏLİYEV dövlət idarəetmə sisteminin növbəti və əsaslı islahatlarına başladı

## Prezident yeni inkişaf strategiyasının icrasını təcrübəli, həm də gənclərdən ibarət peşəkarlar komandasına həvalə etdi

**Prezident İlham Əliyevin Baş nazir və Nazirlər Kabinetinin yeni tərkibi ilə bağlı sərəncamları hökumətin iş üslubu, fəaliyyət perspektivləri barədə ilkin təəssürat yaratmaq üçün yetərlidir. Ölkənin mühüm icra strukturunun formalaşması prosesi dünən demək olar ki, yekunlaşdı və son təyinatlar mühüm istiqamətlər üzrə Prezidentin yeni strateji baxışlarını aydınlaşdırır.**

### Niyə məhz Novruz Məmmədov?

Son üç ildə respublikada aparılan islahatlar miqyasına görə olduqca genişdir, həm də sistemlidir. Hər sahə üzrə konkret plan, layihə və vəzifə-məsuliyyət bölgüsü düzgün müəyyənləşdirilib. Yeni dövrün çağırışlarına adekvat olan islahatların uğurlu gedişini təmin etmək məqsədilə aparılan hüquqi-qanunvericilik təkmilləşməsi davamlı hal alıb. Xüsusən də Konstitusiyaya edilən əlavə və dəyişikliklər islahatların hüquqi tənzimlənməsini və yeniləşən sistemə uyğunlaşdırılmasını əsasən həyata keçirib.

İlham Əliyevin "daha güclü, daha inkişaf edən Azərbaycan, daha rifahlı vətəndaş" konsepsiyasının müasir dövrdə icrasını həyata keçirəcək hökumət də məhz bu yeni situasiyada fəaliyyət göstərəcək. Təşəbbüskarlıq, çeviklik, səmərəlilik, şəffaflıq, məsuliyyət kimi dəyərlər Prezidentin məmurlardan hər zaman əsas tələbi olub. İndi isə görünən odur ki, bunlar həm də yeni hökumətin formalaşmasında İlham Əliyevin əsas etimad meyarıdır. Prezident yeni inkişaf strategiyasının icrasını öz sahəsində onilliklər boyu böyük təcrübə qazanmış mütəxəssislərə, eyni zamanda gənclərdən ibarət peşəkarlar komandasına həvalə edib.

Məsələn, Baş nazir vəzifəsinə təyin edilən Novruz Məmmədovu fərqləndirən, onun personasına pozitiv ictimai münasibəti yaradan səbəblər çoxdur. 20 ildən artıq müddətdə Prezident Administrasiyası kimi ən mühüm ali səlahiyyət məqamında yüksək dövləti vəzifə daşıyan yeni Baş nazir iş fəaliyyətinə diplomatik sahədən başlayıb. Daha sonra elmi-pedaqoji yönümə keçib, dekan, kafedra müdiri vəzifələrinədək yüksəlib, elmlər doktoru, professor elmi dərəcəsi adı alıb. 1997-ci ildə siyasət və idarəetmə ustadı Heydər Əliyevin nəzər-diqqətini cəlb edərək Administrasiyaya xarici əlaqələr şöbəsinə müdir təyin olunub. İlham Əliyevin rəhbərliyi dövründə isə statusu həm də Prezident köməkçiliyinədək artırılıb.

Son 21 ildə hər iki Prezidentin açıq və məxfi danışıqlarının, xüsusən də Dağlıq Qarabağ problemi ilə bağlı müzakirələrin əsas aparıcı şəxslərindən olub. Mühüm beynəlxalq tədbirlərdə dövləti və Prezidenti təmsil edib. Azərbaycanın xarici siyasətinin bütün məqamlarının, o cümlədən geosiyasi baxışlarının müəyyənləşməsində peşəkar məmur, həm də bacarıqlı nəzəriyyəçi alim kimi fəal iştirakı olub.

Bunlarla yanaşı, xaricdə, həmçinin elə ölkəmizdə baş verən siyasi, sosial hadisələr, proseslərlə bağlı daim prinsipial münasibət bildirib, hakimiyyətin qeyri-rəsmi sözçüsü funksiyasını böyük uğurla icra edib. Novruz Məmmədovun inzibati, siyasi fəaliyyəti ilə bahəm, onun qətiyyətli vətəndaş mövqeyi də daim diqqəti cəlb edib. Azərbaycan əleyhinə xaricdə və daxildə aparılan qərəzli kampaniyalara qarşı sosial şəbəkələrdə aktiv etirazlarını qısa, amma lakonik tərzdə, xüsusən ironik formada elə dəqiqliklə ifadə edib ki, bunlar hətta beynəlxalq miqyasda reaksiyalar doğurub.

Novruz müəllim ziyalılığı, alicənablığı, müasirliyi ilə cəmiyyətdə hər zaman məmnunluq yaradır. Medianın sevimli həmsöhbətlərindən olan yeni Baş nazir daim jurnalistlərə açıq məmurdur, əsl dostdur və KİV-də ona olan böyük rəğbətin səbəbi də vəzifəsi yox, şəxsi məziyyətləridir.

Heydər Əliyev siyasi xəttinə, İlham Əliyev missiyasına tam sədaqətlidir, intriqalara əsla meyillənmir, həmkarları arasında səmimiyyəti, təəssübkeşliyi ilə hörmət qazanıb. Vəzifəsinin imkanlarından sui-istifadə etməməsi, inzibati təsir rıçaqlarını şəxsi maraqlarının ödənməsinə yönəltməməsi  onun "təmiz məmur" reputasiyasının əsas zəminidir.

Şübhəsiz ki, Novruz Məmmədovun yüksək təşkilatçılıq qabiliyyəti, təşəbbüskarlığı, bacarığı, ən əsası, onu digər həmkarlarından fərqləndirən fərdi xüsusiyyətləri və fəaliyyət prinsipləri Prezidentin ali etimadını şərtləndirən əsas amil olub.

### İdarəçilikdə irs-varis ənənəsinin uğurlu davamı

Digər sahələrdə də baş verən yerdəyişmələr Prezidentin həmin istiqamətlər üzrə yeni siyasət yürüdəcəyini göstərir.

Məsələn, son illərdə Prezidentin fəaliyyətində aqrar sektor prioritet sahəyə çevrilib. Mütəmadi olaraq, kənd təsərrüfatının müxtəlif sahələri üzrə ümumrespublika müşavirələri keçirən, demək olar ki, hər ay, özü də bir neçə dəfə bölgələrdə fermerlərlə görüşən İlham Əliyev bu sektorda böyük canlanma yaradıb. Lakin etiraf edilməlidir ki, Prezidentin müvafiq tapşırıqlarının və təşəbbüslərinin icra prosesində çeviklik, səmərəlilik hər zaman təmin olunmurdu. "Made in Azerbaijan"ı ümummilli prosesə çevirmək, ərzaq təhlükəsizliyini təmin etmək, işsizliyi aradan qaldırmaq və bu kimi digər vacib məqamların icrasında çatışmazlıqları Prezident ən kiçik detallarına qədər qabardır, hətta onların həll yollarını göstərirdi.

Görünən odur ki, Prezident iqtisadiyyatımızın ən prioritet sahəsinə çevrilən aqrar sektorun idarəçilik sistemini beynəlxalq miqyasda böyük təqdirlə qarşılanan "ASAN" modelinə uyğunlaşdırmaq niyyətindədir. Elə sadə kəndlinin də əsas istəyi budur: şəffaflıq, inzibati maneələrdən uzaq, vətəndaşın maraqlarını qoruyan idarəçilik üslubu...

Nazirlər Kabinetinin yeni tərkibində Sahil Babayev, Mikayıl Cabbarov, İnam Kərimov, Ramin Quluzadə,  Vüsal Hüseynov, Fuad Muradov, Samir Nuriyev və digər nisbətən gənc yaşlı məmurların da təmsil olunması idarəçilikdə irs-varis ənənəsinin növbəti uğurlu təzahürüdür. Əli Əhmədov, Əli Həsənov, Yaqub Eyyubov, Ramil Usubov, Kəmaləddin Heydərov, Şahin Mustafayev, Mübariz Qurbanlı və digər öz sahələrinin bacarıqlı mütəxəssisləri, peşəkarları ilə yanaşı, yeni kadrların da hökumətə cəlb olunması təqdirəlayiqdir.

Prezidentin inauqurasiya mərasimindəki çıxışının tezisləri, əslində, yeni hökumətin qarşısında konkret vəzifələri müəyyənləşdirir. Daha güclü Azərbaycanı qurmağı qarşıdakı yeddi ilin əsas hədəfi elan edən İlham Əliyevin etimadını doğrultmaq isə yeni hökumət tək siyasi yox, həm də mənəvi borcudur...

***İxtiyar HÜSEYNLİ,***
***"Azərbaycan"***

Azərbaycan.- 2018.-24 aprel.- S.1.